**Respublika.** - 2024.- 22 oktyabr. - № 232. - S. 6.

## Bakı konfransı iqlim sisteminə müdaxilə ilə mübarizəyə xüsusi təkan olacaq

**Vaqif Tanrıverdiyev**

***Ölkəmizin paytaxtında keçiriləcək konfransın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və bəşər üçün təhlükəli hesab olunan bütün müdaxilələrin qarşının alınması işinə, heç şübhəsiz, öz töhfəsini verəcək. Bizim üçün bir əhəmiyyətli hadisə də odur ki, ölkə tarixində keçiriləcək ən böyük tədbir olacaq.***

AMEA-nın müxbir üzvü, Gəncə Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi Vaqif Novruzovla söhbətimiz ölkəmizdə bir neçə gündən sonra başlayacaq COP29 konfransının ümumbəşəri əhəmiyyəti, orada müzakirə olunan məsələlər, bu mötəbər tədbirə hazırlığın vəziyyəti və qədim şəhərdə ekoloji sistemə göstərilən diqqət və qayğı barədədir.

–Vaqif müəllim, qlobal iqlim dəyişmələri ilə mübarizəyə həsr olunan, dünyanın ən böyük tədbirindən sayılan COP29-un ölkəmizin paytaxtında öz işinə başlamasına sayılı günlər qalıb. Heç şübhəsiz, həyata keçirilən təşkilati tədbirlər Bakı konfransının uğurla keçəcəyinə əminlik yaradır.

–Əvvəlcə onu qeyd edim ki, Konvensiya 197 ölkə və Avropa İttifaqından ibarətdir. Konfransa böyük beynəlxalq maraq, orada müzakirə olunacaq məsələlər, onun işində 2700-ə yaxın media nümayəndəsinin iştirakı tədbirin xüsusi əhəmiyyətindən xəbər verir. Bir fakt da qürurvericidir ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək ölkəmizə göstərilən çox böyük etimaddır.

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesabındakı paylaşımında xüsusi vurğulayır: "Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Təmiz ətraf mühit və "yaşıl inkişaf" bizim milli prioritetlərimizdir. Bərpaolunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə ev sahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm. Biz COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik".

Bu sözlər qürur və iftixar hissi doğurur. Prezident İlham Əliyevin dediyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. İki həftə ərzində dünyanın diqqəti Bakıya yönələcək. Bu bir faktdır ki, bu gün planetimizin ekoloji vəziyyəti, problemlər həyəcan təbili kimi səslənir. Heç təsadüfi deyildir ki, konvensiyanın ən ali məqsədi də iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab olunan bütün müdaxilələrin qarışısının alınmasıdır. COP29 iclaslarının əsas məqsədi də belə tədbirlərə diqqəti yönəltməkdir.

–Belə mötəbər və möhtəşəm tədbirin Bakıda keçirilməsi təsadüfi deyil, ölkəmizdə, o cümlədən də Gəncədə ekoloji təmizlik çox ciddi şəkildə qorunur, yaşıllıq sahələri artırılır və bununla paralel təhlükəli hesab edilən müdaxilələrə qarşı amansız mübarizə aparılır, səmərəli də nəticələri var.

–Gəncə əsl yaşıllıqlar səltənətinə çevrilib. 300 illik tarixə malik Xan bağı təkcə Azərbaycanın deyil, Qafqazın ən qədim parklarındandır. Öz quruluşuna görə Zaqafqaziyada yeganə olan çinar xiyabanı və bunların arası boyu cərgələnmiş yelpikvari palmalar diqqəti cəlb edir. Onların arxasında Himalay sidrləri və Himalaya şamları sıralanıb. Adi küknar, həmişəyaşıl sərv ağacı, Pitsunda və Krım şamları, qara şam, Qafqaz palması, müxtəlif növ ağ şamlar, atlas sidiri, Şərq tuvası və digər qiymətli həmişəyaşıl ağac və gül kolları parka xususi yaraşıq verir. Dünyanın müxtəlif yerlərindən gətirilmiş bu ağaclar nadir təbiət inciləri kimi qorunur və onlara aqrotexniki qaydada xüsusi qulluq göstərilir. Əsl təbiət muzeyi olan park yay mövsümündə qızmar günəşin, qışda isə soyuq küləklərin qarşısının alınmasında müstəsna rol oynayır.

Şəhərdəki Nəriman Nərimanov parkının ümumi sahəsi 4 min 823 kvadratmetrdir. Fikrət Əmirovun adını daşıyan parkın sahəsi 20 min kvadratmetr sahəni əhatə edir. Məhəmməd Füzuli adına Park öz gözəlliyi ilə diqqəti cəlb edir.

İstiqlal parkının ərazisi 5 hektardır. Dekorativ ağaclar, 2000-ə qədər müxtəlif növ gül-çiçək kolları və 1250 kvadratmetr qazon əsl gözəllikdir. Digər iki bağ - Mirzə Şəfi və Əziz Əliyev parkları yaşıllığa sanballı töhfələrdir.

Ulu öndər Heydər Əliyevin adını daşıyan park kompleksini xüsusi qeyd etmək lazımdır. Dünyanın ən böyük 5 parkı arasında önəmli yer tutan kompleksin ümumi sahəsi 450 hektardır. Burada 350 mindən

çox ağac və bəzək bitkiləri əkilmişdir. Bu ağacların əksəriyyəti Şərq çinarı, şam, küknar, cökə, meyvə ağacları və müxtəlif bəzək bitkiləridir. Çinar ağacları və küknarların sıralandığı Baş xiyabanın eni 53 metr, uzunluğu isə 1400 metrdir.

–Professor, şəhərimizdə yeni salınan Ekoloji Park Kompleksi son illər yaşıllığa diqqət və qayğı baxımından həyata keçirilən çox möhtəşəm və sanballı işlərdəndir. Söhbətimizi Qərb bölgəsində ilk dəfə salınan bu park haqqında fikirlərinizlə davam etdirək.

–Bu möhtəşəm kompleksin tikintisinə və abadlaşdırılmasına 2021-ci ilin dekabrında başlanılıb. Gəncəçayın sağ sahili boyunca uzanan kompleks 11 hektar ərazini əhatə edir.

Ekoloji Park Kompleksinin girişində Ekoloji Parkın rəmzi kimi düşünülmüş "Zeytun ağacı insan ovucunda" abidəsi qoyulub. Ərazidə yeni yollar çəkilib, avtomobil dayanacağı salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb, yağış və damcı sistemləri ilə təchiz olunmuş istixanalar tikilib. Ekoloji parkın Gəncəçay çayı tərəfdəki ərazisində 540 sərv ağacı əkilib, binanın ətrafına isə mozaik daşlar döşənib.

Ümumi sahəsi 2100 kvadratmetr, hündürlüyü 22 metr olan 3 mərtəbəli oranjereya binasının əsas hissəsi dəmir-beton, metal və şüşə-vitraj konstruksiyalarla yığılıb. Daxilində bitkilərin normal inkişafını təmin edəcək xüsusi havalandırma sistemləri quraşdırılıb.

Burada müxtəlif növ nadir gül-çiçək, eləcə də ağac tingləri əkilib. Binada 7 növ ağac, 16 növ gül, 8 növ kol, 9 növ isə kaktus bitkisi əkilib.

Ekoloji Park Kompleksin ərazisində əyləncə mərkəzlərinin, idman qurğularının, iaşə obyektlərinin yaradılması nəzərdə tutulur. Buraya yolu düşən ziyarətçilər müxtəlif növ gül-çiçək, kol bitkiləri, eləcə də ağac tinglərinin yetişdirilməsi işləri ilə də tanış ola biləcəklər.

Respublikamızda pilot layihə olaraq ilk dəfə Gəncə şəhərində reallaşdırılan Ekoloji Park Kompleksində hazırda qazon sahələri genişləndirilir, mövcud yaşıllıq zolağına aqrotexniki qulluq göstərilir və tikintidə son tamamlama işləri həyata keçirilir. Ekoloji layihələrin təbliği mərkəzinə çevriləcək kompleks maarifləndirmə mərkəzi kimi də fəaliyyət göstərəcəkdir.

Prezident İlham Əliyev aprel ayında Ekoloji Park Kompleksində həyata keçirilən işlərlə tanış olub, unikallığı ilə seçiləcək tikintidə işlərin gedişi ilə maraqlanıb və insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün yaradılacaq şəraitlə bağlı bir sıra tapşırıq və tövsiyələr verib.

Gəncəçayın sağ sahilində son tamamlama işləri aparılan bu ərazi ölkəmizin hələlik yeganə Ekoloji Park Kompleksidir. Öz gözəlliyi və möhtəşəmliyi ilə fərqlənən bu unikal park kompleksi təbiətin istənilən mövsümündə öz yaşıllığı və gözəlliyi ilə göz oxşayacaq, heç şübhəsiz, yerli və xarici turistlərin ən sevimli məkanına çevriləcəkdir.

Bu gün ölkəmizdə yaşıllıq sahələrinin artırılması və işin bu sahəsinə daim diqqət və qayğının göstərilməsi dövlət siyasətinin prioritet məsələləridir. Heç şübhəsiz, COP29-a ev sahibliyi etməsi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradənin və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin ölkəmizin uğurlarını dəstəkləməsinin nəticəsidir.